http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 07 (1625) 15 aprel 2016 - cı il Qiymıəti 50 qəpik

# G.Ç.Gəraybəylinin Azərbaycan Tibb Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

Gəray Çingiz oğlu Gəraybəyli Azərbaycan Tibb Universitetinin rektoru təyin edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 aprel 2016-cı il.



BU SAYIMIZDA



Yeni rektor universitetin rəhbər heyəti ilə görüşdü 3



Tibb Universitetində fövqəladə toplantı keçirildi 2

ATU-nun xarici tələbələrinin sayı daha da artacaq 7

Autizm xəstəliyinə dair müzakirələr aparılıb 4



Universitetimizin prorektoru Türkiyədə Azərbaycanı təmsil edib 4





7 aprel – Ümumdünya Sağlamlıq Günüdür 5

World Health Organization



Orduya dəstək məqsədilə qanvermə aksiyası 3

# Professor Gəray Gəraybəyli ATU-nun rektoru təyin olunub

**◆ Aprelin 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Gəray Gəraybəyli Azərbaycan Tibb Universitetinə rektor təyin olunub.**




Səhiyyə naziri Oqtay Şirəliyev Gəray Gəraybəylini Tibb Universitetinin kollektivinə təqdim edib.

Gəray Çingiz oğlu Gəraybəyli 1967-ci ildə Bakı şəhərində anadan olub. 1984-cü ildə orta məktəbi qızıl medalla bitirib və həmin ildə Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olub. 1992-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib.

1992-ci ildən 1993-cü ilədək Azərbaycan Dövlət Tibb Universitetinin psixiatriya kafedrasında baş laborant, 1993-cü ildən 1996-cı ilədək assistent, 1996-cı ildən 2007-ci ilə qədər dosent vəzifələrində işləyib. 2007-ci ilin dekabr ayından Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının müdiri vəzifəsində çalışır.

1995-ci ildə namizədlik, 2007-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib. 1997-ci ildə dosent, 2012-ci ildə isə professor elmi adına layiq görülüb.

60-dan çox elmi əsərin, 1 tədris vəsaitinin, 2 tədris-metodik, 3 metodik tövsiyənin, 4 tətbiq edilmə aktının və 1 səmərələşdirici təklifin müəllifidir. O, dəfələrlə beynəxalq elmi konfranslarda və konqreslərdə iştirak edib. 2001-ci ildə ABŞ Dövlət Departamentinin Fulbright Programı çərçivəsində Cənubi Kaliforniya Universitetində elmi ezamiyyətdə olub.

2007-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş psixiatrı və psixi sağlamlıq üzrə milli koordinatorudur.

# Səfir Tibb Universitetində təhsil alan iraqlı tələbələrlə görüşüb

**◆ İraq Respublikasının Azərbaycandakı səfiri, doktor Fadhil əl-Şuveyli Azərbaycan Tibb Universitetdə təhsil alan İraqlı tələbələrlə görüşüb.**



Universiteti ziyarəti zamanı səfir Fadhil Əl-Şuveyli ATU-nun xarici tələbələr üçün ayrılmış yataqxanasında olub. Burada yaradılan şəraitlə yaxından tanış olan səfir yataqxanada tələbələrin rahat yaşayışının təmin olunmasından məmnunluğunu bildirib. İraqdan olan gənclər universitetdəki təhsil səviyyəsindən, o cümlədən xarici tələbələrə qarşı münasibətdən razı qaldıqlarını söyləyiblər.

Görüş zamanı ATU-nun xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyev Azərbaycan və İraq arasında olan tarixi dostluq münasibətlərindən söz açıb. Ölkələrimiz arasında tarixi köklərə əsaslanan iqtisadi, mədəni, dini əlaqələrin olduğunu, Azərbaycanla İraqı möhkəm dostluq, əməkdaşlıq invə strateji tərəfdaşlıq münasibətlərinin birləşdirdiyini qeyd edib.

Səfir Fadhil Əl-Şuveyli həmçinin Azərbaycan Tibb Universitetinin diplomlarının gələcəkdə İraqda birbaşa tanınması üçün aparılan işlər haqqında da tələbələri məlumatlandırıb, növbəti tədris ilində ATU-ya İraqdan çoxsaylı tələbələrin müraciət edəcəyini bildirib.

# Tibb Universitetində fövqəladə toplantı keçirildi

## Universitet heyəti Azərbaycan ordusunun əsgərlərinə həmrəyliyini bildirdi

**Aprelin 4-də Azərbaycan Tibb Universitetində fövqəladə toplantı keçirilib. Toplantı son vaxtlar cəbhə xəttində baş vermiş hadisələrə, erməni təxribatı və bu təxribatın qarşısını alan əsgər və zabitlərimizin qəhrəmanlığına və ordumuza ediləcək dəstəyə həsr olunub.**



Tədbiri giriş sözü ilə açan rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev son günlər erməni hərbi birləşmələrinin sərhədyanı bölgələrdə törətdiyi təxribatlar və bu təxribatın qarşısının rəşadətli ordumuz tərəfindən qəhrəmancasına alınmasından söz salıb. Bildirib ki, ordumuz təkcə təxribatın qarşısını almaqla kifayətlənməyib. Eyni zamanda, işğal olunmuş ərazilərdə bir sıra strateji yaşayış məntəqələri və yüksəkliklər azad edilib. Ermənilərin atəşkəs rejimini pozaraq sərhədyanı bölgələrdə dinc əhalini güllələbaran etməsi nəticəsində dünyasını dəyişənlərin və yaralıların olduğunu söyləyib. Biz tərəfdən əsgərlərimizin şəhid olduğunu qeyd edən S.Əliyev qarşı tərəfin xeyli sayda canlı qüvvə və texnika baxımından itkilər verdiyini vurğulayıb: "Ordumuzun əldə etdiyi bu nailiyyət və qələbələr adamda fərəh hissi doğurur. Bu təxribatların məhz cənab Prezident İlham Əliyevin ABŞ-da keçirilən "Nüvə sammiti" tədbiri ərəfəsində baş verməsi təsadüfi deyildir. Çünki sammitdə iştirak edən ölkə başçısı Amerikanın bir sıra nüfuzlu dövlət adamları və siyasi xadimləri ilə görüşüb. Görüşlər zamanı cənab Prezident Qarabağ məsələsini önə çəkib və illərdir torpaqlarımızın işğal altında qalmasına və bu sahə ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi məsələsinə toxunub. Torpaqlarımızın azad olunması üçün beynəlxalq qurumların məsələyə ikili standartlarla yanaşdıqlarını qeyd edib" – deyən rektor əvəzi, ölkə başçısının xalqımızın haqq səsinin dünyaya çatdırdığını bildirib: "Doğrudur, ermənilərin havadarları məsələyə həmişə ədalətli şəkildə yanaşmayıblar və bəzi dünya mətbuatı hadisələri təhrif olunmuş şəkildə işıqlandırır, ermənilərin həlak olmasından yazır. Cənab Prezident Təhlükəsizlik Şurasının toplantısında onların bu tərəfkeşlik mövqeyinə qarşı birmənalı və kəskin şəkildə bildirdi ki, erməni əsgərləri Azərbaycan torpaqlarında nə gəzir ki, həlak olurlar. Onlar həlak olmaq istəmirlərsə, işğal olunmuş torpaqlarımızı tərk etsinlər". Natiq dünya ictimaiyyətinin hər iki ölkə rəhbərliyinə atəşkəsin bərpa edilməsi ilə bağlı çağırışına ilk olaraq Azərbaycan tərəfindən müsbət reaksiya verildiyini vurğuladı.

S.Əliyev təəssüflə qeyd etdi ki, erməni tərəfi bu çağırışa məhəl qoymur və təxribatlarını torpaqlarımızda davam etdirirlər: "Universitet müəllimləri və tələbələr dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün lazımi addımlar atmalıdırlar. Biz universitet olaraq cəbhədə yaralanan əsgərlərimizə yardım üçün qanvermə aksiyası keçirəcəyik. Gənclərimizdə əhvali-ruhiyyə yüksəkdir, onlar orduya getmək və döyüşlərdə iştirak etmək üçün universitet rəhbərliyinə müraciət edirlər".

Sonra universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev çıxış edərək xalqımızın bu günlərdə ən xoş anlarını yaşadığını, illərlə qəlblərində yığılıb qalan hisslərini, torpaqların azad edilməsi ilə bağlı fikirlərini büruzə vermək üçün tarixi şansın yetişdiyini bildirdi. Əsgərlərimizin layiqincə öz vəzifələrinin öhdəsindən gəldiyini və bu işdə dəqiq informasiyanın və əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında gənclərimizin əvəzedilməz rolu olduğunu vurğulayaraq söylədi: "Ermənilərlə təkcə ərazilərimiz uğrunda müharibə getmir, həm də tərəflər arasında informasiya müharibəsi aparılır. Buna görə gənclər fəal olmalı, müxtəlif dillərdə informasiyanı dünyaya çatdırmalıdırlar."



Sonra universitetin normal fiziologiya kafedrasının dosenti Rəşid Mahmudov söz aldı. O, ermənilərin neçə illərdir işğal etdikləri ərazilərdə tarixi-mədəni abidələrimizi və təbiəti məhv etdiklərini xatırlatdı. R.Mahmudovun sözlərinə görə, hazırda torpaqlarımızın azad olunması üçün tarixi şərait yetişib: "Mənim 78 yaşım var, müharibədə iştirak etməyə hazıram. Öz torpaqlarımıza sahib çıxmalı, erməni silahlılarını işğal olunmuş ərazilərdən qovmalıyıq"

Çıxışa tələbələr də qoşuldu. MPF-nin V kurs tələbəsi Oktay Tapdıqlı və Hərbi tibb fakültəsinin II kurs tələbəsi Elmir Quliyevin vətənpərvərlik ruhunda etdiyi çıxış alqışlarla qarşılandı.

**Qabil ABDULLAYEV,**

**Fotolar Cənnətalı Çingizindir**

# Yeni rektor universitetin rəhbər heyəti ilə görüşdü

**Azərbaycan Tibb Universitetinə rektor vəzifəsinə təyin olunan professor Gəray Gəraybəylinin aprelin 12-də universitetin rəhbər heyəti ilə görüşü keçirildi.**



Görüşün əvvəlində ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev çıxış edərək prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəylinin universitetin rektoru vəzifəsinə təyin olunduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı.

Bu uğurlu təyinatla əlaqədar kollektiv adından cənab Prezidentə və səhiyyə nazirinə təşəkkürünü bildirən professor S.Əliyev rektor G.Gəraybəyliyə yeni vəzifəsində uğurlar arzuladı.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ona göstərilən etimada görə dövlət başçısı cənab İlham Əliyevə və səhiyyə naziri Oqtay Şirəliyevə təşəkkürünü bildirdi. G.Gəraybəyli qarşısında duran vəzifənin çətin və məsuliyyətindən xəbərdar olduğunu vurğuladı: "Mənim əmək kitabçamda başqa iş yeri haqqında qeyd yoxdur. Universiteti bitirəndən sonra burada çalışıram. Bu universitetin bütün nailiyyətləri mənim üçün çox əhəmiyyətlidir".

Professor G.Gəraybəyli indiyədək ATU-nun əldə etdiyi uğurlarda sabiq rektor, akademik Əhliman Əmiraslanovun böyük zəhməti olduğunu xatırlatdı. Rektor qeyd etdi ki, bundan sonra da Tibb Universitetinin uğurlarının sayının artırılması, nəinki Azərbaycanın, dünyanın aparıcı ali məktəbləri sırasında olması naminə işlər daha böyük əzmkarlıqla davam etdiriləcək.

Toplantıda qarşıdakı müddət ərzində görüləcək işlər, icrası planlaşdırılan məsələlər, gözlənilən islahatlar barədə müzakirələr aparıldı.

# Orduya dəstək məqsədilə qanvermə aksiyası

**Bu çətin günlərdə ölkədəki bütün qurumlar Azərbaycan Silahlı Qüvvələrinə minnətdarlıq və dəstək hissinin nümayişi üçün bütün mümkün imkanlardan istifadə edirlər.**



Aprelin 4-də Azərbaycan Tibb Universitetinin rəhbərliyi və kollektivi hərbi əməliyyatlar zamanı yaralanmış hərbçilərimizin müalicəsinə kömək etmək üçün qan veriblər.

Aksiyanın məqsədi Azərbaycan torpaqlarının azadlığı və suverenliyi uğrunda gedən döyüşlərdə yaralanan əsgərlərin və mülki şəxslərin qana olan ehtiyaclarını təmin etməkdir.

Aksiyanın əvvəlində çıxış edən ATU-nun rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev bildirdi ki, ordumuzun əldə etdiyi nailiyyətlər bütün xalqımızda olduğu kimi, ATU kollektivində də ruh yüksəkliyinə səbəb olub: "Tələbələr qrup halında müraciət edərək Silahlı Qüvvələrimizə yardım etmək istədiklərini deyirdilər. Hətta onlar vuruşmaq üçün ön cəbhəyə yollanmaq arzusundadırlar. Çox təqdiredici haldır ki, xalqımız bu nailiyyətlərə böyük əzmkarlıqla yanaşaraq, həmrəylik, birlik nümayiş etdirdi. Hətta şəhid valideynləri bu yüksək şəhidlik zirvəsinə ucalan övladları üçün "Vətənin başı sağ olsun" dedilər. Bu məsələdə həmılıqla – həm gənc, həm də yaşlı nəsil Prezidentimizə dəstək oldular. Çünki bilirik ki, Prezidentin rəhbərliyi ilə aparılan bu siyasət gələcəkdə daha böyük uğurların əsasını qoyacaq".

S.Əliyev qeyd etdi ki, hərbi əməliyyatlar dövründə Tibb Universitetində bir neçə tədbir keçirilib. 700 nəfərin iştirakı ilə fövqəladə toplantı çağırılıb. Bundan əlavə, 3 mindən çox tələbənin iştirakı ilə dəstək aksiyası keçirilib. Bu dəfə isə ATU tələbələri və kollektivi qan toplamaqla ordumuzun yanında olduqlarını nümayiş etdirdilər.



Aksiyada 400-ə yaxın universitet əməkdaşı, professor-müəllim heyətinin üzvləri, tələbə və rezidentlər iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə müayinədən keçiblər. Lakin təhlillər zamanı iştirakçılardan bəzilərində müəyyən problemlər çıxdığına görə, onların qan verməsi məsləhət görülməyib. Aksiya gün ərzində davam edib.

# Tibbi Şuranın genişləndirilmiş iclasında

**Aprelin 7-də Tədris Terapevtik Klinikanın Tibbi Şurasının növbəti genişləndirilmiş iclası keçirilib. İclası giriş sözü ilə açan klinikanın direktoru, professor Surxay Musayev son günlər cəbhədə baş verən hadisələrdən danışıb.**



O bildirib ki, əsgərlərimiz ordumuzun, ölkəmizin nəyə qadir olduğunu bir daha ermənilərə sübut etdi:

"Onların göstərdiyi şücaət nəticəsində strateji əhəmiyyətli yüksəkliklərimiz geri qaytarıldı. Azərbaycan xalqında, gənclərdə hələ indiyə qədər belə ruh yüksəkliyi görünməmişdi, gənclərimizin müharibəyə getmək üçün könüllü olaraq Müdafiə Nazirliyinə müraciət etmələri bunun sübutudur. Şəhid verən rayonlarda gənclərin öz şəhidini necə qarşılamağının hər birimiz şahidi olduq. Şəhidlərin valideynlərinin dilində yalnız bir kəlmə var: "Vətən sağ olsun".



Bu da əlbəttə, xalqımızın birliyinin, mübarizliyinin göstəricisidir".

Prezident İlham Əliyev də öz çıxışında "Erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun" mesajını verməklə bir daha ordumuzun gücünü, nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Sonra torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gündəlikdə olan birinci məsələ ilə bağlı baş həkim, dosent Ramin Bayramlı çıxış edərək klinikanın mart ayındakı müalicə-diaqnostik fəaliyyəti ilə bağlı hesabatı şura üzvlərinin diqqətinə çatdırıb.

Mart ayı ərzində klinikanın şöbələrində stasionar və gündüz rejimdə müalicə alan pasiyentlər barədə ətraflı məlumat verən baş həkim bildirib ki, 2015-ci illə müqayisədə bu il xəstə qəbulunun sayında artım müşahidə edilir. Bu da klinikada müasir standartlara cavab verən müalicə-diaqnostika metodlarının və həkimlərin səyinin nəticəsidir.

Reanimasiya və İntensiv Terapiya şöbəsinin fəaliyyətini xüsusi vurğulayan baş həkim bildirib ki, bura əsasən digər xəstəxanalardan ağır vəziyyətdə olan xəstələr gətirilib. Onlar reanimasiyada müalicə olunduqdan sonra müvafiq şöbələrə yerləşdiriliblər.

Baş həkim mart ayı ərzində kardiologiya, hemotologiya, revmatologiya, endokrinologiya və 3-cü pediatriya şöbələrinə daha çox xəstə qəbul edildiyini vurğulayıb.

Daha sonra klinikada nefroloji xidmətin təşkili və Efferent Terapiya şöbəsinin fəaliyyəti barədə həkim Elgün Həziyevin çıxışı dinlənilib.

Mərkəzdə ən müasir cihazlarla aparılan prosedurlardan söz açan həkim hemodializ seanslarının üzərində xüsusi dayanıb, bu prosesin klinikada təhlükəsiz və yüksək standartlara uyğun formada aparıldığını qeyd edib.

Son 3 ilin müqayisəli diaqramını diqqətə çatdıran həkim qeyd edib ki, bu illər ərzində xəstələrin sayında artım olub: "Bu müddət ərzində 51 böyrək biopsiyası aparılıb. Mərkəzimizdə xəstələrə müasir üsullarla müalicə üsulunu tətbiq edirik. Son bir neçə ay ərzində klinikanın nefroloqu Orxan Quliyevin hazırladığı 8 xəstədə böyrək transplantasiyası aparılıb".

Qarşıya qoyulan hədəflərdən danışan həkim əsas məqsədlərinin gələcəkdə nefrologiya sahəsində yenilikləri praktikada tətbiq etməkdən ibarət olduğunu bildirib.

İclas işini cari məsələlərin müzakirəsi ilə yekunlaşdırıb.

**P.ARZUQIZI**

# Universitetimizin prorektoru Türkiyədə Azərbaycanı təmsil edib

**Aprelin 11-12-də Türkiyə Cümhuriyyətinin Ərzurum şəhəri Atatürk Universitetinin ev sahibliyi və sədrliyi ilə Türk dilli ölkələrin Universitetlər birliyinin II baş toplantısı keçirilib.**



Türkdilli ölkələrin Türk Keneşinin iştirakı və bilavasitə dəstəyilə keçirilən toplantıda Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Türkiyənin 14 universitetinin rəhbərləri və ya səlahiyyətli nümayəndələri ilə bərabər TÜRKSOY, Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kurulu, Türk Akademiyası, müxtəlif layihələrin rəhbərləri və konsullar iştirak edib.

Toplantıda Azərbaycan Tibb Universitetini elmi işlər üzrə prorektor, professor İbrahim İsayev təmsil edib.

Toplantıda ortaq ikili diplomların tanınması, tələbə təşkilatlarının fəallığının artırılması, qarşılıqlı tələbə, müəllim, elmi işçi, mütəxəssis mübadiləsini nəzərdə tutan ORHUN layihəsinin təsdiqi, Avropa Təhsil Proqramına inteqrasiyanın sürətləndirilməsi, üzvlüyə yeni universitetlərin qəbulu kimi məsələlər müzakirə olunaraq təsdiq edilib. Bunlarla bərabər, yığıncaqda Türkdilli ölkələrin müstəqillik qazanmasının 25 illik yubileyinə həsr olunmuş tədbirlərə hazırlığın vəziyyəti barədə də məlumat verilib.

Təşkilata üzv universitetlərin nümayəndələrinin səsverməsi nəticələrinə əsasən, Türk Keneşi Türk Universitetlər Birliyinin sədrliyi növbəti iki il üçün Qırğızıstanın Manas Universitetinə keçib.

Qeyd edək ki, təbabət elminin yüksək templə inkişaf etdiyi indiki dövrdə Azərbaycan Tibb Universiteti dünya elminə çıxış, bilik və təcrübə mübadiləsinin aparılması baxımından beynəlxalq əlaqələri ildən-ilə gücləndirir. Hazırda bu təhsil ocağı dünyanın 80-dən çox nüfuzlu ali məktəbi ilə sıx əməkdaşlıq edir, fəal tələbə və mütəxəssis mübadiləsi aparır. Türkiyə Universitetlər Birliyinin üzvü kimi Azərbaycan Tibb Universiteti bir sıra layihələrdə aktiv iştirak edir, elmi konfrans və simpoziumlara qatılır.

# Tədris Cərrahiyyə Klinikasında 2 uşaq üzərində növbəti uğurlu "Koxlear implantasiya" əməliyyatı aparılıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının qulaq-burun-boğaz şöbəsinin müdiri, uzman-həkim Yusif Hacıyev və onun komandasının anadangəlmə eşitmə qüsuru olan 1 yaşlı Lalə və 1 yaş 1 aylıq Turan üzərində apardığı əməliyyat uğurla nəticələnib.**



"Daxili qulağın protezləşməsi" əməliyyatları sayəsində anadangəlmə, eşitmə qabiliyyəti heç olmayan uşaqların eşitməsi bərpa olunur. ATU-nun Tədris Cərrahiyyə Klinikasında bu cür əməliyyatlar mütəmadi olaraq davam edir. Bu əməliyyat nəticəsində əlil statusunda olan uşaqlar sağlam fərd olaraq cəmiyyətə qazandırılır. Həmçinin, əvvəllər eşidib-danışan, lakin sonradan bu qabiliyyətini itirən xəstələrə də bu əməliyyatı tətbiq etmək mümkündür.

Uzman-həkim Yusif Hacıyev deyir ki, bu əməliyyatların uğurlu keçməsi üçün əsas şərtlərdən biri xəstələrin mümkün qədər tez – 4 yaşa qədər müraciət etməsidir: "Hazırda əməliyyat etdiyimiz uşaqlar 1 yaş və 1 yaş 1 aylıqdır. Əməliyyatın bu dövrdə keçirilməsinin üstünlüyü ondadır ki, biz artıq nitq inkişafının başlanğıcında bu körpələrə implant cihazı taxmış olduq. Bu uşaqlar artıq heç bir şəkildə o biri uşaqlardan fərqlənməyəcək, danışığı da gecikməyəcək. Əminəm ki, bu uşaqlar gələcəkdə qarşımıza müəllim, mühəndis, həkim və s. kimi sənət sahələrinə yiyələnmiş vətəndaş olaraq çıxacaqlar".

Qeyd edək ki, eşitməsində anadangəlmə problem olan hər kəs ATU-nin Tədris Cərrahiyyə Klinikasına müraciət edə bilər. Həkim Y.Hacıyev bütün uşaqların vaxtında eşitmə müayinəsindən keçirilməsini, vaxtında həkimə müraciət etməsinin önəmli olduğunu deyir: "Əgər hər hansı bir narahatçılıq müşahidə olunursa, uşaq vaxtilə hansısa bir ciddi xəstəlik keçiribsə, mütləq eşitmə yoxlanmasından keçməsi lazımdır".

Qeyd edək ki, əməliyyat zamanı eşitməyən uşaqların qulağına implant daxil edilir. Bu da körpələrin rahatlıqla eşitməyə və danışmağa başlamasına kömək edir.

# Autizm xəstəliyinə dair müzakirələr aparılıb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında aprelin 9-da "1-ci Azərbaycan Autizm Paneli" adlı tədbir keçirilib.**




Tədbiri giriş sözü ilə açan klinikanın direktoru, professor Surxay Musayev autizmə düçar olan uşaqlara diqqət və qayğı göstərilməsinin vacibliyindən danışıb: "Belə uşaqlara hər zaman kömək olunmalıdır. Çünki bu uşaqlar cəmiyyətdə özlərini bir növ təcrid olunmuş kimi hiss edirlər. Biz həkimlər, eləcə də cəmiyyətimiz onların bu fikrə düşmələrinə icazə verməməlidir. Belə uşaqlar dövlətimizin də diqqət və qayğısı ilə əhatə olunub. Mən deyərdim ki, bu gün autizmli uşaqlara dəstək, onlar üçün görülən işlər əsl xeyirxahlıq nümunəsidir", - deyə S.Musayev bildirib. O, klinikanın fəaliyyətindən də söz açıb: "Klinikamızda çox peşəkar həkimlər və professorlar çalışır. Belə bir tədbirin klinikamızda keçirilməsi istəyi xəbərini eşidəndə çox yüksək qarşıladım. Düşünürəm ki, onların necə bir istedada sahib olduğu bəzi insanlara bəlli deyil. Ona görə də belə maarifləndirici tədbirlərin bir çox yerlərdə keçirilməsinə ehtiyac var. Nəticədə valideynlər də bu xəstəlik barədə daha çox məlumatlanmış olarlar və vaxtında həkimə müraciət edərlər. Belə xeyirxah tədbirin keçirilməsinə görə Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinə minnətdarlığımı bildirirəm".

Daha sonra çıxış edən respublikanın baş psixiatrı, ATU-nun psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəyli ölkə rəhbərliyi və Səhiyyə Nazirliyi tərəfindən sağlamlıq məsələlərinə çox böyük diqqət ayrıldığını deyib: "Uşaqların, yeniyetmələrin sağlamlığı dövlətimizin daim diqqət mərkəzində olub. Hələ 15 il bundan əvvələ qədər insanlar autizm xəstəliyinin nə demək olduğunu başa düşmürdülər və bu xəstəliklə bağlı çox az məlumatları var idi. Belə uşaqlara çox fərqli diaqnozlar qoyulurdu. Son illər isə bu sahədə peşəkar həkimlərin yetişməsi və keçirilən maarifləndirmə tədbirləri cəmiyyətimizin maariflənməsində çox önəmli rol oynadı". G.Gəraybəyli onu da vurğulayıb ki, bütün insanlar bunun təkcə psixiatrik və pediatrik problem deyil, həm də cəmiyyətimizin ümumi problemi olduğunu bilməlidirlər.



Sonra ATU-nun psixiatriya kafedrasının assistenti İkram Rüstəmov "Autizmə müasir baxış" mövzusunda məruzə ilə çıxış edərək deyib ki, bu xəstəliyin yayılma tarixi hələ 1975-ci illərə gedib çıxır: "Təəssüflər olsun ki, cəmiyyətimizdə maarifləndirmənin çox aşağı səviyyədə olması bu xəstəlik barədə məlumatların azlığına gətirib çıxarıb. Amma zaman keçdikcə mütəxəssislərə müraciət yaşı azalmağa başladı və nəticədə insanlar autizmin nə demək olduğunu başa düşdülər. Bu xəstəliyin yaranma səbəblərinə gəlincə, hələ ki, bu barədə tam dəqiq məlumat yoxdur. Burada nevrobioloji və ətraf mühitin təsiri də çox böyük rol oynayır. Əvvəllər bəzi alimlər bunun yalnız genetik olduğunu düşünürdülərsə, hazırda bu xəstəliyin yayılma arealını həm də ətraf mühit amili ilə bağlayırlar."

**ATU-nun mətbuat xidməti**

# 7 aprel – Ümumdünya Sağlamlıq Günüdür

1950-ci ildən başlayaraq Ümumdünya Sağlamlıq Günü hər il aprelin 7-də müxtəlif mövzular üzrə qeyd edilir. Hər il bu günün mövzusu Dünya Səhiyyə Təşkilatı (DST) üçün prioritet sayılan bir problemi diqqət mərkəzinə gətirir.

World Health Organization

Ümumdünya Sağlamlıq Günü diqqəti əsas ictimai səhiyyə məsələlərinə yönəltmək üçün qlobal bir imkandır. DST-nin Avropa bürosu xüsusi tədbirlər keçirir, eləcə də siyasətçilər və digər tərəfdaşlar arasında müzakirələrin aparılmasına şərait yaradır.

Builki Ümumdünya Sağlamlıq Gününün şüarı belədir: “Fəal ol, sağlam qidalan, tibbi məsləhətlərə riayət et, şəkərli diabetə qalib gəl”. Bu şüar daha çox fiziki fəaliyyət və təkmilləşdirilmiş qidalanmanın təşviqi kimi ölkələrin diabetli əhalisi üçün xəstəliyin riskini azaltmaq məqsədilə siyasət səylərinə diqqətin artırılması vacib olan sahələri göstərir.

Avropa regionunda 64 milyon insan şəkərli diabetdən əziyyət çəkir və xəstəlik hər il minlərlə insanın ölümü ilə nəticələnir. Halbuki hesablamalara görə, azı onların 20 faizində 2-ci tip şəkərli diabet hallarının qarşısı alına bilər.

2030-cu ilədək 7-ci əsas ölüm səbəbinə çevriləcək şəkərli diabet xəstəliyi ilə mübarizə bu il Ümumdünya Sağlamlıq Gününün mövzusudur. DST-nin Avropa üzrə regional ofisinin direktoru Jujanna Cakab qeyd edib ki, bu regionun ölkələri şəkərli diabet xəstəliyinin fəsadlarından əziyyət çəkirlər. Eyni zamanda, bu ölkələrin səhiyyə sistemləri çox vaxt xəstəliyə nəzarət etməkdə və onun fəsadlarını aradan qaldırmaqda çətinlik çəkirlər. Şəkərli diabet xəstəliyinin təhlükəsi bütün cəmiyyətin onu dayandırmaq üçün əsaslı birgə səyi olmayanadək davam edəcək.

“Şəkərli diabet üzrə risk amilləri digər qeyri-yoluxucu xəstəliklərin riskləri ilə yaxından əlaqəlidir”, – deyən Y.Cakab əlavə edib: “Şəkərli diabet epidemiyasına nəzarətin tək etibarlı yolu insanların bu xəstəliyə yoluxmalarının qarşını almaqdır və biz, çox güman ki, vahid bir yanaşma ilə buna nail olacağıq. Eyni zamanda, səhiyyə sistemləri artıq diabetlə yaşayan milyonlarla avropalıya vəziyyətlərinə nəzarət etmək və problemsiz yaşamaq üçün dəstək məqsədilə çox şey edə bilərlər”.

# Tibb Universitetində diabetlə bağlı geniş toplantı keçirildi

Azərbaycanda yüz minlərlə insanı narahat edən xəstəliklə bağlı mühüm faktlar açıqlandı.



Tədbirin əsas məqsədi milyonlarla insana təsir edən şəkərli diabet və digər qeyri-infeksion xəstəliklər haqqında maarifləndirməni gücləndirmək, bu cür xəstələrə qayğını artırmaqdan ibarətdir.

Toplantının əvvəlində son günlər Azərbaycan Silahlı Qüvvələrinin apardığı əməliyyat nəticəsində cəbhədə həyatını itirənlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Tədbirdə açılış nitqi ilə çıxış edən ATU-nun Tədris Cərrahiyyə Klinikasının baş həkimi, dosent Asiman Həsənov bildirdi ki, hər il aprelin 7-si “Ümumdünya Sağlamlıq Günü”ndə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaranması qeyd olunur: “Bu gün dünya ictimaiyyətinin diqqəti qlobal sağlamlıq üçün böyük əhəmiyyət kəsb edən bir mövzuya yönəldilir. 2016-cı il diabet xəstəliyinə həsr olunub. Diabetin nə qədər ciddi problem olduğu, insanları nə qədər narahat etdiyi hər kəsə bəllidir.Artıq diabet sosial bəlaya çevrildiyindən, biz də həm tibb işçiləri, həm də cəmiyyətin üzvləri kimi bu məsələni diqqətdə saxlamağa çalışırıq”. Baş həkim bildirdi ki, şəkərli diabet xəstəliyinin vaxtında aşkar olunması, profilaktik tədbirlərin aparılması vacibdir. Bu baxımdan, ictimaiyyətdə maarifləndirmənin daha da gücləndirilməsinə ehtiyac var.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin icraçı katibinin müavini Səbinə Məhbubi isə bildirdi ki, diabet xəstəliyinin qarşısı vaxtında alınmazsa, bu, daha çox insan itkisinə səbəb ola bilər: “Artıq diabet tibb sahəsindən sosial bir problemə çevrilib. Burada təkcə mütəxəssislər işləməli deyil. Bu məsələdə dövlət strukturları və ictimai təşkilatlar birgə fəaliyyət göstərməlidirlər”. O, xəstəliklə bağlı məlumatlandırma səviyyəsinin artırılmasının vacibliyini də qeyd etdi.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ATU nəzdində yaradılmış İlkin Komitəsinin sədri Şahrud Əhmədov çıxışı zamanı bildirdi ki, dövlət başçısının sərəncamına əsasən rayonlarda, bölgələrdə kütləvi şəkildə müayinələr aparılır: “Fəaliyyətimiz dövründə dəfələrlə xeyryyə tədbirləri, konfranslar, qanvermə aksiyaları keçirmişik. Bu missiyamız bundan sonra da uğurla davam edəcək. ”

Azərbaycan Diabet Liqasının sədri Yeganə Sultanova şəkərli diabet xəstəliyi və onun növləri, ölkə daxilində və ümumdünya səviyyəsində müalicənin vacibliyi, müvafiq profilaktik tədbirlərin aparılması haqqında məlumat verdi. “Azərbaycanda 299 min 377 nəfər şəkərli diabetdən əziyyət çəkir. Bununla bağlı Azərbaycanda çox mühüm işlər görülüb, dövlət proqramı və qanunlar qəbul edilib. Lakin Azərbaycan dövləti və vətəndaş cəmiyyəti bu istiqamətdə işləri davam etdirir”.

Klinikanın Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov şəkərli diabetin gözdə yaratdığı problemlərdən danışdı. Onun sözlərinə görə, diabet xəstəliyinə görə göz dibində baş verən dəyişikliklərin qarşısı alınan və alınmayan növləri var. Təəssüf ki, bəzən diabet xəstələrinin göz dibində dəyişikliklər 10 ildən sonra özünü biruzə verir. Bu da problemin vaxtında aşkarlanmasına mane olur. Buna görə həkim mütəmadi olaraq göz müayinəsindən keçməyin vacib olduğunu bildirdi.

Çıxışlar və müzakirələr bitdikdən sonra tədbirin sonunda iştirakçıların xatirə fotosu çəkildi.

# “Diabetli xəstələr ilk gündən insulinlə müalicə olunmalıdır”

**Aprelin 7-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında “Diabet xəstəliyinə qalib gələk” mövzusunda konfrans keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən klinikanın direktoru, professor Surxay Musayev bildirib ki, Səhiyyə Nazirliyi tərəfindən “2016-2020-ci illər üçün Şəkərli Diabet xəstəliyi üzrə Dövlət Proqramı” qəbul edilib. Bu sənədə uyğun olaraq, Tədris Terapevtik Klinikada da diabet xəstəliyi ilə əlaqədar olaraq fəaliyyət proqramı hazırlanıb.**



“Nazirliyin əmrinə əsasən hazırlanan bu proqramı klinikamızda da müvafiq şöbələrə paylamışıq və həkimlərimiz bundan məlumatlıdırlar” .



Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin vitse-prezidenti Babək Saleh şəkərli diabetin yayılma statistikası haqqında məlumat verdi. Onun sözlərinə görə, 2014-cü ildə şəkərli diabet xəstələrinin sayı 18 yaşından yuxarı olan insanlar arasında artıq 9% təşkil edib: “2012-ci ildə isə bir milyondan çox insan bu xəstəlikdən dünyasını dəyişib. Ümumdünya Səhiyyə Təşkilatının tədqiqatlarına əsasən, 2030-cu ildə şəkərli diabetdən vəfat edənlərin sayına görə bu xəstəlik 7-ci yerdə qərarlaşacaq. Aşağı və orta inkişaf etmiş ölkələrdə şəkərli diabetdən ölən əhali 80% təşkil edir. İnkişaf etmiş ölkələrdə isə bu xəstəliklə mübarizə daha aktiv gedir və nəticədə ölüm faizi aşağı düşür”.

B.Saleh qeyd edib ki, bölgələrdə bu xəstəliklə bağlı əhalini maarflənədirməyə ehtiyac var. Çünki əhali arasında elementar məlumatlar demək olar yox səviyyəsindədir: “Onlar düşünürlər ki, insulin müalicəsi ən son məqamda aparılmalıdır. Halbuki, xəstəlik aşkar olunduğu gündən insulinlə müalicə olunmalıdır”.

Respublika Endokrinoloji Mərkəzdə “Diabet pəncəsi otağı”nın fəaliyyət göstərdiyini deyən vitse-prezident bölgələrdə də buna çox böyük ehtiyac olduğunu vurğulayıb: “Bölgələrdə, xüsusən ucqar rayonlardan elə xəstələr gətirilir ki, onlar tamamilə ağırlaşmış halda bizə müraciət edirlər. Ona görə də ucqar rayonlarda Diabet Məktəbinin fəaliyyət göstərməsi çox mühümdür. Bunun sayəsində biz xəstələrə nəzarəti gücləndirərik və nəticədə bu fəsadların qarşısı alınar”.

B.Saleh bu sahədə görülən işlər və qəbul edilən sənədlərdən, həmçinin planlardan da söz saldı. Onun sözlərinə görə, bu il dövlət büdcəsindən şəkərli diabet xəstəliyi ilə mübarizəyə 40 milyon manat ayrılıb: “Yaxın vaxtlarda bu xəstələrin elektron qeydiyyatı aparılacaq. Belə olduqda, artıq xəstələrin uzaq yerlərdən Bakıya gəlib hər hansı bir arayışı almasına ehtiyac qalmayacaq, bunu elektron qaydada həll edəcəklər”.

B.Saleh qeyd edib ki, çox sürətlə inkişaf etsə də, bu xəstəliyin qarşısını almaq mümkündür. Sağlam həyat tərzi, fiziki hərəkətlərin artırılması, tütün məmulatlarından uzaq durmaq şəkərli diabetin profilaktikasında çox önəmli rol oynayır.

ATU-nun uşaq xəstəlikləri kafedrasının müdiri, professor Amaliya Əyyubova bu xəstəliyin uşaqlar arasında da geniş yayıldığını vurğulayıb. Xəstəliklə mübarizədə valideynləri diqqətli olmağa çağırıb və zamanında uşaqlarını həkimə göstərmələrini məsləhət görüb. Həm də Tədris Terapevtik Klinikada fəaliyyət göstərən “Diabet Məktəbi”nin işindən söz açaraq maarifləndirmə məsələsinin önəmini vurğulayıb.

Sonda konfrans iştirakçıları üçün diabeti erkən aşkar etməyə imkan verən qlukohemoqlobin analizi aparılıb.

Konfransda Klinikanın professor-müəllim heyəti, tələbə və rezidentlər, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin Qeyri-İnfeksion xəstəliklər üzrə proqramının məsləhətçisi İsa Əliyev də iştirak edib.

**Pərvin ARZUQIZI**

## Beynəlxalq təşkilatlara müraciət!

XIX əsrin əvvəllərində Çar Rusiyası ilə İranın bir-birləri ilə apardıqları müharibələrdən sonra onların arasında bağlanan "müqavilə" əsasında Azərbaycan xalqının rəyi soruşulmadan iki hissəyə parçalanan torpaqlarımızın Şimali Azərbaycan hissəsi çar Rusiyasının, Cənubi Azərbaycan hissəsi isə indiki İran İslam Respublikasının tərkibinə qatıldı.



**Mübariz ALLAHVERDİYEV,**
*Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının professoru, Xocalı sakini*

# SƏSİMİZƏ SƏS VERİN

1828-ci ildən etibarən İrandan və digər xarici ölkələrdən 100 minlərlə erməni ailələrini çar Rusiyasının İrandakı səfiri Qriboyedovun köməkliyi və iştirakı ilə Şimali Azərbaycan torpaqlarına, xüsusən də Qarabağın dağlıq hissəsinə və qədim Azərbaycan torpağı olan İrəvan Xanlığı ərazisinə yerləşdirdilər. Geniş qəlbli Azərbaycan xalqı tolerantlıq nümayiş etdirərək qollarını geniş açdı və ermənilərin bu torpaqlarda firavan yaşamaları üçün hər cür şərait yaratdı. Az keçməmiş dünən ac-yalvac olub, bu gün harınlaşan gəlmə ermənilər Azərbaycanın çörəyi, suyu ilə dirçələndən sonra Azərbaycan torpaqlarına sahib çıxmaq, onlara çörək verib bəsləyən azərbaycanlıları qırmaq, öz dədə-baba yurdlarından deportasiya etmək xülyasına düşdülər. Ermənilər 1905-1907, 1918-1920, 1948-1950-ci illərdə Azərbaycan xalqına qarşı zorakılıqlar, qırğınlar, deportasiyalar törətdilər. Bunun nəticəsində, keçmiş SSRİ təşəkkül tapdıqdan sonra Azərbaycan torpaqlarında Lenin-Stalin-Mikoyan-Şaumyan tetradasının üzdəniraq göstərişləri ilə süni Ermənistan Respublikası yaratdılar və qədim Azərbaycan şəhəri olan İrəvanı zorla azərbaycanlıların əlindən alıb ermənilərin paytaxt şəhəri elan etdilər. Onlar Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətini yaradanda N.Nərimanovun Ermənistanın tərkibində də ermənilərə bağışlanmış Azərbaycan torpaqlarının bir hissəsində Zəngəzur Muxtar Vilayəti yaradılması təklifini cavabsız qoydular. Bununla da gözü doymayan, vandalizm xəstəliyinə tutulan erməni işğalçıları sonuncu dəfə 1988-1994-cü illərdə – 1987-ci ildə dünya şöhrətli siyasətçi dahi Heydər Əliyev erməni lobbisinin təkidi ilə Mixail Qorbaçov tərəfindən Moskvada Mərkəzi Komitədə tutduğu yüksək dövlət vəzifəsindən kənarlaşdırıldıqdan dərhal sonra keçmiş SSRİ-nin 366-cı moto-atıcı alayının köməyi və dəstəyi ilə yenidən Azərbaycan torpaqlarının daha 20%-ni işğal etdilər, bir milyondan artıq dinc əhalini deportasiyaya məruz qoyub, həm qondarma Ermənistanda, həm də qondarma Dağlıq Qarabağ Muxtar Vilayətində etnik təmizləmə apardılar. Xocalı, İrəvan, Quqark, Xocavənd, Xankəndi, Qaradağlı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan, Kosalar, Kərkicahan, Meşəli, Daşbulaq, Malıbəyli, Quşçular, Bağanis-Ayrım soyqırımlarını törətdilər. Həmişəki kimi o vaxtlar da dünya buna göz yumdu. O illərdən 25 ilə yaxın vaxt keçməsinə baxmayaraq ermənilər Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsinə məhəl qoymadan Azərbaycan torpaqlarının işğal edilməsi siyasətini bu gün də davam etdirirlər. 1994-cü ildən atəşkəs rejimi qüvvəyə minsə də, ermənilər hər gün bütün sərhəd boyu atəşi davam etdirir, dinc əhalini qırır, onları içməli sudan məhrum edir, əkin sahələrində əkib-becərmə işləri aparmalarına belə imkan vermirlər. Sərhəd zonasındakı azərbaycanlı əhali bir növ ermənilərin girovuna çevrilib. Qarabağdan işğalçı ordunun sülh yolu ilə çıxarılması məsələsi ilə guya Beynəlxalq qurumlardan ATƏT-in Minsk qrupu məşğul olur. Əslində isə onlar fəaliyyətsizlik göstərir, işğalçı Ermənistan ordusunun Azərbaycan torpaqlarından çıxarılması haqqında heç bir əməli tədbirlər görmür, əksinə, işğalçı ordunun Azərbaycan torpaqlarında lövbər salıb möhkəmlənməsinə zəmin yaradırlar. ATƏT-in əsl iç üzü də elə bundan ibarətdir. Azərbaycanın işğal olunmuş torpaqlarında ermənilər tərəfindən hazırlanan və xüsusi təlim keçən terroristlər dünyanın hər yerinə transfer edilir, bununla da onlar bütün bəşəriyyətdə terror vahiməsi, terror xofu yaradır, narkotik maddələr al-verinə geniş meydan açırlar. Son illərdə sərhəd zonalarında ermənilər tərəfindən hər gün atəşkəs rejimi pozulur və onlar Azərbaycanı Xəzər dənizinə töküb məhv edəcəkləri ilə hədələyirlər.

2016-cı ilin aprel ayının 2-si erməni terrorçularının bütün sərhəd boyu hücuma keçməsi Azərbaycanın qalan torpaqlaını da işğal etmək, xalqımızı, dinc əhalini yenidən qırmaq, soyqırımına məruz qoymaq məqsədi daşıyırdı. Bundan xəbər tutan Azərbaycan Milli Ordusu erməni işğalçılarına cavab verməK məcburiyyətində qaldı. Azərbaycan xalqı, Azərbaycan ordusu 25 ildən artıq bir müddətdir ki, dözür və erməni işğalı altında olan torpaqların sülh yolu ilə azad edilməsinə inanırdı. Lakin bu baş vermədi. Ermənilər digər ölkələrin torpaqlarının işğalı haqqındakı Beynəlxalq Konvensiyaların heç birinə, BMT-nin bu haqda mövcud olan dörd qətnaməsinə məhəl qoymadıqları və beynəlxalq qınağa məruz qalmadıqları, cəzasız qaldıqlarını görüb, daha da şirnikləşdi, qalan torpaqlarımızı da zəbt etməyə cəhd göstərdilər. Xoşbəxtlikdən bu dəfə rəşadətli Milli Azərbaycan Ordusu ermənilərin bu təxribatının qarşısını qəhrəmancasına ala bildi və erməni cəlladlarının özləri də öz evimizin içində bizə qarşı törətdikləri vandalizmin qurbanı oldular. Bir daha dünya dərk etdi ki, təkbətək döyüşdə Azərbaycan oğlu heç vaxt erməniyə uduzmayıb. Bir daha təsdiqləndi ki, ermənilər yalnız onların havadarlarının hesabına bizim torpaqlarımızı işğal ediblər. Bu aksiomanı gələcək nəsillər də bilməlidir. Gələcək nəsillər həm də bilməlidirlər ki, 2016-cı il 2 aprel tarixi Milli Ordumuzun Qəhrəmanlıq salnaməsinə çevrildi.

Mən Xocalıda doğulmuş, Şuşa və Xankəndidə orta təhsil almış, erməni işğalçılarının təzyiqinə, işgəncəsinə, deportasiyasına məruz qalmış Azərbaycan ziyalısı kimi, həm öz adımdan, həm də ermənilər tərəfindən soyqırımına uğradılmış 613 Xocalı şəhidinin təsadüfən salamat qalmış doğmaları adından, ailəmiz adından bildirirəm ki, Milli Ordumuzun qəhrəmanlıqlarını, eləcə də Ali Baş Komandan, igid Sərkərdəmiz, Prezidentimiz cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyənir, ürəkdən dəstəkləyirik. Biz Prezidentimizin hər zaman yanındayıq və xalqımızın bir yumruq kimi birləşməsində, torpaqlarımızın düşməndən azad edilməsi yolunda əlimizdən gələn hər şeyi etməyə hazırıq. Artıq xalqımızın səbr kasasının daşdığı an gəlib çatıb.

Dünyanın bütün tərəqqipərvər insanlarını, bütün bəşəriyyəti erməni işğalçı ordusunun Azərbaycan torpaqlarını tezliklə tərk etməsinə çağırış və tələb etməyə səsləyirəm.

Bizim səsimiz haqq səsidir! Səsimizə səs verin! Azərbaycan xalqı bütün millətlərə, bütün xalqlara böyük hörmət və məhəbbətlə yanaşır. Bizə inanın, ey İnsanlar! Azərbaycan xalqının Sizə olan məhəbbəti müqabilində Siz də ona məhəbbət ifadə edin. Səsimizə səs verin! Bununla Siz həm bizi, həm də bizim timsalımızda bütün bəşəriyyəti erməni vandalizmindən xilas etmiş olarsınız.

# "Xalqımızın haqq işini müdafiə etməyə çağırıram"

Azərbaycanın müstəqillik yoluna qədəm qoyduğu 1918-1920-ci illərdə, eləcə də Sovet imperiyasının çökdüyü XX əsrin 90-cı illərində qeyri-demokratik yolla seçilən Ermənistan hökuməti ordumuzun formalaşmadığı dövrlərdə ölkəmizə təcavüz etmişlər.

Dünyaya YUNESKO-nun siyahısına düşən Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi ümumbəşəri dəyərlərin daşıyıcıları olan korifeyləri verən vətənimizin 20%-i indi separatçı ermənilər tərəfindən işğal olunub.

1993-cü ildən üzübəri BMT TŞ-nın erməni təcavüzkarlarının Azərbaycan ərazisindən çıxarılması ilə bağlı qətnamələri yerinə yetirilməyib. Bütün bunlar bizim xalqımızda beynəlxalq təşkilatlara olan ümidlərin itirilməsi hissini yaradır. Doğulub boya-başa çatdığım Kəlbəcər rayonuna 24 ildir ki, həsrətəm, o yerlərə ayaq basa, əcdadlarımın məzarlarını, tarixi abidələrimizi ziyarət edə bilmirəm. Ziyarət məqsədi ilə Kəlbəcərə gedən həmyerlilərimiz Dilqəm Əsgərov, Şahbaz Quliyev öz toprpağımızda erməni ordusu tərəfindən əsir götürülüb, həbs cəzasına məruz qalıb.

Kəlbəcərdə yerləşən, "Karlovi Varı"ya bərabər tutulan "İsti su" müalicəvi suyu Azərbaycan xalqının, eləcə də bəşəriyyətin istifadəsindən kənarda qalmışdır.

Sosial-iqtisadi inkişaf baxımından Cənubi Qafqazın lider dövləti olan Azərbaycan son təcavüz illərində 2015-ci il Avropa Oyunlarına ev sahibliyi etdi, "Avroviziya" mahnı müsabiqəsini ölkəmizdə layiqincə keçirdi, indi isə Formula-1 yarışlarını keçirməyə hazırlaşır. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Lakin təəssüflə qeyd etməliyik ki, bütövlükdə Zaqafqaziya regionunun sivil dünyaya inteqrasiyası erməni xalqına rəhbərlik edən Ermənistan hökumətinin təcavüzkar siyasəti ucbatından zəifləyir.

Bu gün biz ümummilli lider Heydər Əliyevin sülhsevər siyasətini regionda həyata keçirən, demokratik yolla seçilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında monolit şəklində birləşərək Azərbaycan xalqı adından beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyəti erməni təcavüzünü pisləməyə, xalqımızın haqq işini müdafiə etməyə çağırıram!



**Nağdəli ZAMANOV,**
*Azərbaycan Tibb Universitetinin dosenti, Kəlbəcər rayon sakini*

# ATU tələbələri orduya dəstək aksiyası keçirdi

**◆ ATU-nun 3000-ə yaxın tələbəsi Milli Ordunun cəbhə bölgələrindəki uğurlarına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili və xarici siyasətinə dəstək mitinqi keçiriblər.**



Onlar çıxışları zamanı yaralılara kömək məqsədilə qanvermə aksiyalarında fəal iştirak edəcəklərini də bildiriblər.

Mitinqin sonunda tədbir iştirakçıları hamılıqla Azərbaycanın dövlət himnini oxuyublar.

**Kafedralarımız**

# II Daxili xəstəliklər kafedrasının dünəni və bu günü

**◆ Azərbaycan Tibb Universiteti yarandığı 1930-cu ildən bu günədək mənalı, olduqca keşməkeşli bir yol keçib. Universitet o vaxtdan indiyədək həkimlik peşəsini yüksək tutan, Hippokrat Andına sadiq qalan və bu peşənin şərəfini istər ölkəmizdə, istərsə də ölkənin hüdudlarından kənarda qorumağa müvəffəq olan həkimlər ordusunun yetişməsinə öz töhfələrini verə bilib. Savadlı kadrların yetişməsi və formalaşmasında isə kafedraların rolu danılmazdır.**



Hazırda universitetdə 70-dən çox kafedra fəaliyyət göstərir. Biz bu rubrikamızda ayrı-ayrılıqda kafedraların yaranması, dünəni və bu günü ilə bağlı oxuculara ətraflı məlumat verməyi qərarlaşdırmışıq.

Bu dəfə növbə II Daxili xəstəliklər kafedrasınındır.

Qeyd edək ki, II daxili xəstəliklər kafedrası 1920-ci ildə Bakı Dövlət Universitetində təşkil edilən hospital terapiyası kafedrasının varisi hesab olunur. O zaman təşkil olunmuş bu kafedraya 1920-1921-ci illərdə professor A.Levin rəhbərlik edib. 1922-1926-cı illərdə isə kafedra müdiri professor Polien Mezernitski olubdur. 1926-cı ildən 1951-ci ilə qədər kafedraya profesor Nikolay Afonski rəhbərlik edib. N.Afonski Bakıda hospital terapiyası kafedrasına rəhbərlik etdiyi illərdə əsasən qan dövranı orqanlarının patologiyasına dair elmi-tədqiqat işləri aparıb. O, həmçinin 1934-cü ildə çap edilmiş “Daxili xəstəliklər” dərsliyinin müəlliflərindən biri olub.

1943-cü ildə kafedranın əsasında 2 sərbəst hospital terapiyası (birinci və ikinci) kafedrası yaradılıb. Onlardan birinə N.Afonski, digərinə isə professor Cahangir Abdullayev rəhbərlik edib. 1951-1953-cü illərdə dosent M.Həsənov, 1954-cü ildə isə ə.e.x., professor S.Məmmədzadə təyin edilib. S.Məmmədzadə bu vəzifədə 1965-ci ilə qədər çalışıb. 1966-cı ildən 1976-cı ilə qədər II hospital terapiyası kafedrasına professor Saleh Salihov rəhbərlik edib. Professor S.Salihovun vəfatından sonra kafedraya 1976-1977-ci illərdə professor H.Abdullabəyov, 1977-1989-cu illərdə isə professor Zərifə Zeynalova rəhbərlik edibdir.

1984-cü ildə N.Nərimanov adına ATİ-də aparılan struktur dəyişikliklərilə əlaqədar, I hospital terapiyası kafedrasına II daxili xəstəliklər kafedrası adı verilib. 1974-cü ildən 1989-cu ilə qədər II daxili xəstəliklər kafedrasına t.e.d., professor Sədrəddin Kərimov rəhbərlik edib. 1989-1999-cy illərdə kafedra müdiri professor E.Qorin olub.

1999-cu ilin dekabr ayından isə kafedranın müdiri vəzifəsinə professor Vəsadət Əzizov seçilib.

V.Əzizov 1985-ci ildə Ümumittifaq Kardioloji Mərkəzdə (Moskva şəhərində) namizədlik və 1993-cu ildə doktorluq dissertasiyası müdafiə edib. Onun rəhbərliyi altında 3 doktorluq və 22 namizədlik dissertasiyası müdafiə edilib. Hazırda rəhbərliyi altında 10 doktorluq və 5 namizədlik işi davam etdirilir. V.Əzizov 500-ə qədər çap olunmuş elmi işlərin, o cümlədən 25 dərslik, dərs vəsaiti, monoqrafiya, 6 metodik tövsiyə, 38 metodik işləmələrin, 3 müəllifik şəhadətnaməsinin, 1 ixtiranın müəllifidir. Onun elmi işləri dünyanın bir çox dillərində çap olunub.

Vəsadət müəllimin “Təbib”ə verdiyi açıqlamaya görə, hazırda kafedrada 33 nəfər çalışır. Onlardan 3-ü professor, 16-sı dosent, 14-ü assistentdir. Rəhbərlik etdiyi kollektivin indən sonra da tibb elminin inkişafına layiqli töhfələrini vermək və tibbi kadrları yetişdirmək üçün fədakarlıq göstərmək əzmində olduğunu bildirən kafedra müdiri son 15 ildə çap olunan kitab və dərs vəsaitləri barədə də məlumat verdi. Onun sözlərindən məlum oldu ki, 2001-ci ildə V.Əzizov, İ.Əfəndiyev, L.Əmrahovanın həmmüəllifliyi ilə “Kəskin zəhərlənmələr” dərs vəsaiti, V.Əzizov, S.Alimetov, Q.Kərimli, X.Qurbanovanın həmmüəllifliyi ilə “Sarılıq sindiromu”, 2002-ci ildə S.Alimetov, V.Əzizov, A.Əliyevin “Parakardiologiya”, V.Əzizov, O,Quliyev, Z.Əlixanova, T.Mirzəyevin “Tibbi terminlərin izahlı lüğəti”, V.Əzizovun “Xroniki ürək çatışmazlığı” monoqrafiyası işıq üzü görüb. Bu ənənə növbəti illərdə də davam edib. Belə ki, 2004-cü ildə V.Əzizov, İ.Əfəndiyev, A.Maqsudovun “Kliniki toksikologiya”, V.Əzizov, Ş.İbrahimova, X.Qurbanova, İ.Nəsirov, S.Alimetovun “Laborator müayinələrin normal və patoloji göstəriciləri” dərs vəsaitləri, V.Əzizov, O.Quliyev, X.Nəsibovanın həmmüəllifliyi ilə “Kardiofunksional yük sınaqları” kitabı nəşr olunub. Sonrakı illərdə V.Əzizov, V.Mirzəzadə, M.Əsgərovun “Arterial hipertenziya”, V.Əzizovun “Daxili xəstəliklər” (I cild-Kardiologiya), “Daxili xəstəliklər (I cild- Pulmonologiya), V.Əzizov, M.Ağayev, N.Hüseynova, Ş.İbrahimova, L.Əmrahovanın “Daxili xəstəliklər” (tibb tələbələri üçün dərslik), V.Əzizov, S.Şahbazbəyova, Z.Əlixanova, L.Əmrahova, M.Əsgərovun “Revmatik xəstəliklər və oxşar sindromlar”, V.Əzizov, T.Sadıqova, L.Əfəndiyeva, N.Hüseynova, S.Məmmədlinin “Kəskin koronar sindrom” kitabları çap olunanlar siyahısına daxil edilib. Təbii ki, nəşr olunanlar təkcə dərs vəsaitləri ilə məhdudlaşmayıb. V.Əzizov, F.Tağızadə, İ.Əfəndiyev, L.Əmrahovanın həmmüəllifliyi ilə “Kimyəvi xarakterli kütləvi zəhərlənmələr zamanı və digər fövqəladə hallarda toksikoloji yardım” metodik tövsiyə və V.Əzizov, V.Qurbanov, S.Məmmədli “Kardiovaskuliyar xəstəliklərin yeni risk faktorları” monoqrafiyası da çap olunub. Tələbələrin bilik səviyyəsinin artırılması istiqamətində hazırda yeni dərs vəsaitləri üzərində işlərin getdiyini bildirən Vəsadət müəllim, növbəti illərdə də kitabların nəşr olunacağını diqqətimizə çatdırdı.

**Q. ABDULLAYEV**

# ATU-nun xarici tələbələrinin sayı daha da artacaq

**◆ Aprelin 1-də İngiltərənin “Elevita Company” firmasının məsləhətçisi, professor Keyt Brumer Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının qonağı olub.**



Səfərin məqsədi Azərbaycan Tibb Universitetində əcnəbi tələbələr üçün yaradılan şəraitlə tanış olmaq, universitet haqqında xarici ölkələrdə gənclər arasında daha çox məlumat yaymaqdan ibarətdir.

ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə yaxından tanış olan Keyt Brumer buradakı bacarıq otaqlarını gəzib, Tədris Treninq mərkəzindəki müasir və son model tibbi avadanlıqlarla tanış olub. Qonağa “Anatomaj”, “Miti” aparatlarının funksiyaları haqqında geniş məlumat verilib.

K.Brumer Tibb Universiteti ilə tanış olduğu üçün məmnunluğunu bildirib. Professor burada əcnəbi tələbələrin keyfiyyətli təhsili üçün hər cür lazımi şərait yaradıldığını qeyd edib. Onun sözlərinə görə, yeni tədris ilində ATU-ya bir sıra Avropa, Asiya, o cümlədən Hindistandan tələbələr gələcək.

Professor Brumer ATU ilə əməkdaşlığın qarşıdakı dövrdə daha da möhkəmləndiriləcəyindən əminliyini vurğulayıb.

Görüş zamanı Tədris Cərrahiyyə Klinikasının Tədris Treninq Mərkəzinin müdiri Qorxmaz Həsənov Azərbaycan Tibb Universitetinin 2014-cü ildə fəaliyyətə başlamış Tədris Cərrahiyyə Klinikasında yerləşən Tədris Treninq Mərkəzinin (TTM) tələbə, həkim-rezidentlər üçün nəzərdə tutulmuş, dünya standartlarına uyğun ən müasir avadanlıqla təchiz olunmuş çoxfunksional bacarıq laboratoriyası olduğunu deyib.

Görüşdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının beynəlxalq əlaqələr üzrə şöbə müdiri Aygün Şükürova da iştirak edib.

# TƏBRIK EDİRİK!

**◆ Əsrlər boyu müəllim haqqında müdrik sözlər, gözəl kəlamlar deyilib. Amma gəlin etiraf edək ki, öncə bu peşənin sahibi böyük Tanrı vergisinə sahib olmalıdır və Nizami Gəncəvinin sözləri ilə desək, günəşə bənzəməlidir. Tələbələr hər zaman belə “vergili müəllimləri” ruhən hiss edib, onların işıq saçdığı ətrafa toplanıb və müvafiq biliklərə yiyələniblər. Əlbəttə ki, belə müəllimlər hər zaman gənc nəsil nümayəndələri tərəfindən sevilib və seçilən şəxslərə çevirilib.**



**Belə müəllimlərdən biri Azərbaycan Tibb Universitetinin farmakoqnoziya və botanika kafedrasının baş müəllimi Fəridə Əhməd Ağa qızı Qocayevadır. O, 1956-cı ildə Bakı şəhərində anadan olub. 1981-ci ildə Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirib. 1977-ci ildən Azərbaycan Tibb Universitetində əvvəl laborant, sonra baş laborant və assistent, hal-hazırda isə baş müəllim vəzifəsində çalışır. “Əczaçılıq botanikası” fənnini tədris edir. Fəridə xanım kafedranın və universitetin ictimai həyatında yaxından iştirak edir. O, kafedranın həmkarlar qrupunun sədridir.**

Hər zaman öz üzərində işləyən bu təvazökar peşə sahibi öz dərin bilikləri və tələbkarlığı ilə yanaşı, çox qayğıkeş və səmimi müəllimdir. Fəridə müəllimin bu günlərdə 60 yaşı tamam olur. İşlədiyi kollektiv bu münasibətlə onu ürəkdən təbrik edir və can sağlığı arzulayır! Tələbələri isə sevimli müəllimlərinə III kurs, 880[a] qrup tələbəsi Validə Quluzadənin bütün tələbə dostları adından yazdığı bu şeirlə təbrik edir:

Gülərüz, mehriban, qayğıkeş İnsan,
Çıxılmaz bir işdə, dar gündə olsan,
İki yol ayrıcı görüb dayansan,
Düz yolu göstərər Fəridə xanım!

Lalətək zərifdi onun ürəyi,
Heç vaxt əsirgəməz bizdən köməyi.
Daim tələbənin olub gərəyi,
Təşəkkür edirik, Fəridə xanım!

Sağlıqlı bir ömür arzu edirik,
Dəyərli olana dəyər veririk.
Böyük ehtiramla sizi sevirik,
Ad günün mübarək, Fəridə xanım!

# Fakültələrdə istehsalat müşavirələri keçirilib

**Hər il ənənəvi olaraq imtahan məqbul sesiyası ərəfəsində tələbələrlə müəllim heyəti arasında görüşlər keçirilir. Bu görüşlərin məqsədi tələbələri dinləmək, onların problemlərini özlərinin dilindən eşitmək və lazımi tədbirlər görməkdən ibarətdir.**



Bu məqsədlə aprel ayının əvvəlindən başlayaraq qarşıdan gələn semestr və dövlət imtahanlarına hazırlığın hansı vəziyyətdə olması ilə əlaqədar olaraq fakültələrdə istehsalat müşavirələrinin keçirilməsinə start verilib.

Belə müşavirələrdən biri aprelin 6-da ATU-nun pediatriya fakültəsində olub. Müşavirəni açan fakültənin dekanı, dosent Nəriman Nağıyev ilk öncə erməni hərbi birləşmələrinin sərhədyanı bölgədə törətdikləri təxribatının qarşısının əsgər və zabitlərimiz tərəfindən qəhrəmancasına alınmasına toxunub. Torpaqlarımızın müdafiəsi zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qazanılmış qələbə və xalqımızın döyüş əhval-ruhiyyəsinin yüksək olmasının sevindirici hal olduğunu söyləyib.

Sözünə davam edən dekan pediatriya fakültəsinin bu il sonuncu buraxılış olduğunu bildirib və bu növbəti semestr və dövlət imtahanlarına hazırlığın vəziyyəti ilə bağlı tələbələrə ətraflı məlumat verib: ""Təhsil sistemi haqqında" Qanuna əsasən tibb təhsili üç mərhələdə aparıldığına görə, Nazirlər Kabinetinin qərarı ilə 2010-11-ci tədris ilindən etibarən fakültəmizə tələbə qəbulu dayandırılıbdır. Hazırda siz tələbələr bu fakültənin axırıncı kurs tələbələrisiniz. Bununla da fakültənin fəaliyyəti bu il sona yetir. Bilirsiniz ki, pediatriya fakültəsi ölkədə uşaq ölümü və onlar arasında yoluxucu xəstəliklərin çoxluğu ilə əlaqədar olaraq 1936-cı ildə təşkil edilib və bu il fakültənin yaranmasının 80 ili tamam olur". Sözünə davam edən N.Nağıyev bildirib ki, o vaxtdan indiyədək burada on minlərlə savadlı mütəxəssisin hazırlandığını və fakültənin üzərinə düşdüyü vəzifəni ləyaqətlə yerinə yetirib. Yeni təhsil sisteminə keçidlə əlaqədar olaraq yenə də ölkəmizə və uşaqlarımıza gərəkli kadrların hazırlanacağına ümid etdiyini vurğulayan dekan çıxışının sonunda tələbələrə semestr və dövlət imtahanlarında müvəffəqiyyətlər arzulayıb. Sonra fakültənin dekan müavini, professor Mehman Əliyev tədrisin səviyyəsi, tələbələrin dərsə davamiyyəti ilə bağlı müşavirə iştirakçılarını məlumatlandırıb. Tədrisin səviyyəsinin yüksək və tələbələrin dərsə davamiyyətinin qənaətbəxş olduğunu bildirən natiq həmçinin bəzi qüsurlardan da söhbət açıb və belə halların aradan qaldırılması üçün lazımi tövsiyələr verib.





Aprelin 7-də I müalicə-profilaktika fakültəsinin istehsalat müşavirəsi keçirilib. Müşavirəni açan fakültənin dekanı, professor Abuzər Qazıyev imtahanlara hazırlıqla bağlı çıxış etmək üçün sözü dekan müavini Əsəd Sultanova verib. Tədrisin səviyyəsi və tələbələrin dərsə davamiyyəti haqqında məlumat verən dekan müavini tələbələrin dərsburaxma hallarının normadan aşağı olduğuna diqqət çəkib. O sonra isə V və VI kurs tələbələrinin semestr və dövlət imtahanlarında verəcəyi imtahanların siyahısını açıqlayıb və imtahanlara düşəcək test suallarının artıq hazır olduğunu qeyd edib.

Toplantıda çıxış edən Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayarmov rəhbərlik etdiyi mərkəzin ötən semestrlərdə olduğu kimi, bu ildə problemsiz şəkildə imtahanların keçiriləcəyinə, keçən il test suallarında olan bəzi qüsurların bu il aradan qaldırılacağına və mərkəzə göndərilən sualların daha da təkmil olacağına ümidli olduğunu vurğulayıb.

Sonra ATU-nun elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev çıxış edib: "Çox istərdim ki, burada iştirak edən tələbələr onları düşündürən hər hansısa bir problem mövcuddursa, çəkinmədən öz fikirlərini söyləməlidi. Çünki tələbəni narahat edən çatışmazlıqların belə toplantılarda səsləndirilməsi gələcəkdə işlərimizin təkmilləşdirilməsinə yardımçı ola bilər". Prorektor tələbələrə qarşıdan gələn imtahanlarda nailiyyət qazanmalarını arzulayıb.

Elə həmin gün II müalicə-profilaktika fakültəsinin IV kurs tələbələrinin də istehsalat müşavirəsi keçirilib. Müşavirəni açan fakültənin dekanı, dosent Taryel İsmayılov kredit təhsil sisteminin tədris qaydaları barədə fikirlərini bölüşüb. Daha sonra o tədris ili dövründə və eləcə də imtahanlara hazırlıqla bağlı tədbir iştirakçılarını məlumatlandırmaq üçün sözü fakültənin dekan müavini, dosent Zabit Məmmədova verib. Zabit müəllim IV kurs tələbələrinin 3 dildə (Azərbaycan, rus və ingilis) və 26 qrupda təhsil aldıqlarını bildirib və qarşıdan gələn semestr imtahanlarında 8 fəndən imtahan verəcəklərini nəzərə çatdırıb.

Müşavirədə çıxış edən universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova tələbələri beynəlxalq proqramlarda fəal iştirak etməyə çağırıb. O, qeyd edib ki, beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil etmək və xalqımızın haqq səsini dünyaya çatdırmaq hər bir azərbaycanlının ümdə vəzifəsidir. Onun üçün də gənclərimiz əgər gələcəkdə savadlı, dünyagörüşlü bir həkim kimi yetişmək istəyirsə, mütləq xarici dilləri bilməli və bu layihələrdə yaxından iştirak etməlidir.

Diskussiya şəraitində keçən müşavirlər zamanı çıxış edən tələbələrin qaldırdıqları müxtəlif məsələlər müzakirə olunub və bu problemlərin aradan qaldırılması istiqamətində bir sıra əməli təkliflər səsləndirilib.

**M.ƏLƏKBƏRLİ.**

## MİNNƏTDARLIQ

Heç kəsə sirr deyil ki, yer üzünün əşrəfi sayılan insan üçün ən şirin nemət cansağlığıdır. Bu baxımdan insanların sağlamlığı keşiyində dayanan həkimlərin də ən müqəddəs peşə sahibi adlandırılması təbiidir. Elə bütün arzuların fövqündə də cansağlığı dayanır.

# ÜRƏK DEYİR YAŞA HƏLƏ...

Redaksiyamıza gələrək ona şəfa verən həkimlərin şəfqətindən ürək dolusu danışan Gülzadə Nəsib qızı Məmmədovanı dinlədikcə həkimlik peşəsinin müqəddəsliyini sanki yenidən "kəşf elədik". Gülzadə xanım ritmi pozulan ürəyinin döyüntülərini öz axarına qaytaran həkimlərə minnətdarlıq hissini də ürəklə çatdırırdı. Əslində "yumruq boyda" ürəyin insan həyatındakı xüsusi rolunu yada salmağa ehtiyac da yoxdur. El arasında "ürək həkimi" kimi tanınan kardioloqların yeri başqadır. Cəmiyyətdə ağır xəstəliklərə uzun müddət sinə gərməyi bacaran insanlar barədə deyilən "ürəyi sağlam imiş" ifadəsinə də teztez rast gəlirik. Böyük ovqat şairi Hüseyn Arif isə ürəyin gücünü belə tərənnüm edirdi:

*İlləri yola salmışam,*
*Mahnı qoşub, saz çalmışam.*
*Ömür deyir qocalmışam,*
*Ürək deyir yaşa hələ.*

Vəzifəsi ürəkləri yaşatmaq olan sağlamlıq keşikçiləri hər cür ehtirama layiqdirlər. Gülzadə xanım da böyük ehtiramla ürək damarlarında uğurlu stent implantasiyası aparan ATU-nun Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsinin invaziv kardioloqu Elnur İsayevə, şöbənin müdiri, dosent Fərid Əliyevə, dosent Şəfəq xanım İbrahimovaya, həkim kardioloqlar Fuad Səmədov, Afiyəddin İskəndərov və tibb bacılarına öz ailəsi, doğmaları adından təşəkkürünü bildirir. İstəyir ki, onun sevincindən, minnətdarlıq hissindən şöbənin bütün tibbi personalına pay düşsün.

Bəlkə də dünyada ən gözəl hiss kiməsə gərəkli olduğunu duymaq, insanlara edə biləcəyin xeyirxahlıqdan zövq almaqdır. Heç bir maddiyyatla ölçülməyən bu zövqü yaşamaq bütün peşə sahiblərinə, xüsusilə həkimlərə qismət olsun.

**A.KAMRANOĞLU**

## Allah rəhmət eləsin!

«Təbib» qəzetinin kollektivi qəzetin baş redaktoru Eldar İsmayıla əzizi

**Əbülfət müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Histologiya, sitologiya və embriologiya kafedrasının əməkdaşları kafedranın müdiri, professor Eldar Qasımova

**bacısının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## *Etibarsız sayılır*

ATU-nun hazırlıq kursunun tələbəsi Emad A. M Allahalıhın adına verilmiş Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa görə verilən icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 802ᵃ qrup tələbəsi Məhəmməd Rza Rostami-Azmandın adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, 887ᶜ qrup tələbəsi Mohammed Khaldoon Abduljaleel oglunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 164ᵇ qrup tələbəsi Abbaslı Lamiyə Saməddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 42ᵇ qrup tələbəsi Məmmədova Lalə Zakir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 304